# "Özümü həmişə Azərbaycan vətəndaşı hesab etmişəm"

**İlahi səsi var idi. Səsindəki gözəllik, məlahət diqqət çəkirdi. Onun istedadının sərhədi yox idi. Sanki Tanrı onu səsi ilə insanların könlünü fəth etməyə yaratmışdı. İnsafla deyək ki, o, bunu bacarmışdı da. Bircə dəfə dinləyib, bir ömür səsinin sehrinə düşməmək mümkün deyildi. Bilmirəm, buna sirr deyək, sehr deyək, yaxud insanların gözəlliyə vurğunluğumu? Hər halda onun səsi kimi zahiri görkəmi də, boy-buxunu da, səhnə mədəniyyəti də harmonik idi, gözəl idi…**



Babası tanınmış bəstəkar, anası teatr rəssamı və aktrisa idi. 1942-ci ildə dünyanı ölüm kabusu bürüdüyü dəhşətli müharibə illərində həyata gəlib. Anadan olduqdan az sonra atasını müharibəyə çağırırlar.

Söhbət görkəmli azərbaycanlı opera və estrada müğənnisi, bəstəkar, SSRİ Xalq artisti Müslüm Məhəmməd oğlu Maqomayevdən gedir. O, 1942-ci il avqustun 17-də Bakı şəhərində anadan olub.

Müslüm Maqomayaev müsahibələrində atasını xatırlamadığını deyirdi. Anası Ayşət (səhnə ləqəbi ilə Kinjalova) tanınmış aktrisa idi. Həyat yoldaşının ölümündən sonra Ayşət Kinjalova Bakıdan Maykopa, oradan da Vışniy Voloçekə köçür. Müslüm əmisi Camalın himayəsində qalır. Yüksək vəzifədə çalışan əmisi Müslümə qarşı ədalətli, gözəl davranışı ilə onun yaddaşına əbədi həkk olunan doğması idi. Müslüm onu həmişə hörmət və ehtiramla yad edərdi. Musiqi təhsili olmayan Camalın fortepiano və royalda yaxşı ifa etmək bacarığı da olub. Elə Müslümün olan qeyri-adi istedadını da ilk dəfə o kəşf edib. Gözəl musiqi duyumuna və təmiz ilahi səsə malik Müslüm Bakı Konservatoriyasının nəzdində bəstəkarlıq və fortepiano sinfi üzrə musiqi məktəbinə daxil olur.

Övladı üçün darıxan ana Müslümü yanına - Vışniy Voloçekə aparır. Lakin bir il sonra anası onu Bakıya göndərir. Bakıya döndükdən sonra Müslüm təcrübəli vokalistlərin dərs dediyi Bakı Musiqi Məktəbinə qəbul olunur. Sonralar görkəmli sənətkar ilk musiqi təhsili aldığı məktəbin konsertmeysteri Tamara Kretingeni bütün ömrü boyu sonsuz minnətdarlıq hissi ilə xatırlayırdı. Tamara Kretinge boş vaxtlarında Müslümlə məşğul olur, onun üçün o qədər də məşhur olmayan bəstəkarların nadir əsərlərini tapırdı. Tamara xanımın düşüncəsinə görə dəfələrlə ifa olunan əsərləri təkrarlamaqdansa, öz interpretasiyasını yaratmaq üçün bu ona lazım idi.

Müslüm tamaşaçılar qarşısında ilk dəfə 14 yaşında Bakı Dənizçilər Evində konsertdə çıxış edib. Yeniyetməlik dövrünü keçirən Müslümün səsinin batmasından ehtiyatlanan ailəsi ona xüsusi nömrə ilə çıxış etməyə icazə vermək istəməsələr də, o, artıq səsinin tam formalaşdığını hiss etdiyini deyərək ifa qərarından vaz keçmir. Bu çıxış ona çox böyük uğur qazandırır.

1961-ci ildə Müslüm Maqomayev Bakı Hərbi Dairəsinin Mahnı və Rəqs Ansamblının solisti olur. Bu zaman onun Zaqafqaziya üzrə qastrol səfərləri başlayır, müğənnilik karyerası yalnız yüksələn xətt üzrə gedir. Gənc Müslümün nadir səsi, qeyri-adi istedadı təbii ki, Azərbaycanın musiqi ictimaiyyətinin diqqətini cəlb edir. Məşhur dirijor və bəstəkar Niyazi onu çox sevir, sənətdəki hər addımına göz qoyur, qayğısına qalırdı. Oxumaqdan yorulmayan Müslüm təcrübəli pedaqoqlardan dərs aldıqca səsi daha da cilalanır, gözəlləşir və tembri zənginləşirdi.

Maestro Niyazinin tövsiyəsi ilə 1962-ci ildə tələbə və gənclərin Helsinkidə keçirilən VIII Ümumdünya festivalında, 1963-cü ildə isə Moskvada keçirilən Azərbaycan mədəniyyəti günlərində uğurlu çıxışları ilə şöhrət qazanır və Bakıya medalla qayıdır. "Oqonyok" jurnalı onun portretini və "Bakılı gənc dünyanı fəth edir" başlıqlı məqalə dərc edir.

Xatırladaq ki, 1960-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub, İtaliyanın Milan şəhərindəki "La Skala" teatrında təcrübə keçib. Enriko Pyatsa ilə "Sevilya bərbəri" operasından Fiqaronun "Toska" operasından Skarpianın partiyalarını hazırlayıb.

1966-cı ildə Parisin "Olimpiya" konsert salonunda ilk konsertini verib. 1968-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirib. 1969-cu ildə Sopotda (Polşa) keçirilən Beynəlxalq Mahnı Festivalında ilk mükafatını alıb.

1975-ci ildə Azərbaycan Dövlət Estrada Simfonik Orkestrinin bədii rəhbəri təyin edilib. Bu orkestrlə Sovet İttifaqının bir sıra şəhərləri ilə yanaşı, Fransa, Bolqarıstan, Polşa, Finlandiya, Kanada və İranda konsertlər verib. 1970-ci illərdən həyatını estrada ilə bağlayıb və böyük populyarlıq qazanıb. Keçmiş SSRİ-nin hər yerində çıxışlar edib.

Müslüm Moqamayev o zaman SSRİ-də stadionlarda konsertlər verən ilk müğənni olub. Onun konsert proqramlarına televiziyalar geniş vaxt ayırar, qrammofon valları böyük tirajla buraxılardı.

1960-cı illərin sonlarında Müslüm Maqomayev öyrənir ki, Rostov Filarmoniyasının ciddi maliyyə problemi var. Hətta iş o yerə gəlib çatıb ki, Don kazaklarının mahnı və rəqs ansamblının qastrollarda geyinmək üçün kostyumları belə olmur. Belə bir məqamda Maqomayev rostovlulara yardım etmək məqsədilə konsert verməyə razılaşır. Bu konserti o, Rostovda stadionda verməli olur. Stadion 45 mindən çox tamaşaçı ilə dolur. Əslində, müğənni yalnız konsertin birinci hissəsində çıxış etməyə razılıq vermişdi. Lakin tamaşaçılar sevimli sənətkarı səhnədən buraxmırlar. Konsert 2 saatdan çox çəkir…

Dünyaşöhrətli müğənni Alla Puqaçovanın Müslüm haqqında Rusiya televiziyalarının təşkil etdiyi xüsusi proqramda dediyi sözləri xatırlamamaq mümkün deyil: "Müslümün Rostovda, stadionda konserti planlaşdırılmışdı. Bilet tapmaq mümkün deyildi. Çox baha qiymətə iki bilet tapıb rəfiqəmlə konsertə getdik. Müslüm konsertə ağ rəngli QAZ-24 markalı avtomobili ilə gəlmişdi. Tamaşaçılar onun maşınının qarşısını kəsib avtomobili başları üzərinə qaldırıb əllərində gətirdilər. Biz onu dəlicəsinə sevirdik".

Müslüm Moqamayevin repertuarı hərtərəfli və olduqca geniş olub. Populyar mahnılarla yanaşı, dünya hitlərini, klassik əsərləri, kinolara yazılmış mahnıları məharətlə səsləndirib. Azərbaycan Ali Sovetinin deputatı olub, bir sıra orden və medallarla təltif edilib.

1960-cı illərin ortalarında Müslüm Moqamayev SSRİ-də və bir sıra digər ölkələrdə geniş tanınan məşhur müğənni idi. Təsadüfi deyil ki, Böyük Teatrın rəhbərliyi nəyin bahasına olursa-olsun, onu öz truppasına cəlb etməyə çalışırdı. O, hələ uşaqlıqdan Mattia Battistini, Enriko Karuzo, Mario del Monako, Tinna Ruffo kimi italyan klassiklərinin qramplastinkaları ilə maraqlanır, onların musiqi təcrübələrini öyrənirdi. Onun ən böyük arzularından biri İtaliyada təhsil almaq olur. O, Azərbaycan Opera və Balet Teatrı tərəfindən "La Skala" teatrına təcrübə toplamağa göndərilir. Artıq xəyalları gerçəkləşən müğənniyə Çenarro Barro, Enriko Pyatsa kimi canlı korifeylərdən dərs almaq nəsib olur.

Bakıya Fiqaro kimi qayıdan Müslüm "Seviliya bərbəri" tamaşasında səhnəyə çıxır. Görkəmli pianoçu Rauf Atakişiyevlə dostluğu və əməkdaşlığı ona bu yolda daha böyük uğurlar qazandırır. "Seviliya bərbəri" operasının hər tamaşası anşlaqla keçir.

1966-cı və 1969-cu illərdə Maqomayevin Paris "Olimpiya"sında konsertləri anşlaqla keçir. "Olimpiya"nın direktoru müğənniyə illik müqavilə təklif edir. Lakin SSRİ Mədəniyyət Nazirliyinin müdaxiləsi ilə bu təklifdən imtina edir. Nazirlik bunu belə izah edir ki, Maqomayev dövlət konsertlərində çıxış edən müğənnidir və planlı konserti var. Mədəniyyət Nazirliyi eyni zamanda Maqomayevə, ümumiyyətlə, müstəqil qərar qəbul etməyi qadağan edir.

Təbii ki, o zaman sözə qulaq asmamaq, başqa düşüncədə olmaq mümkün deyildi. Belə hərəkət vətənə xəyanətdə ittiham olunmaq kimi ağır nəticələrə gətirib çıxara bilərdi. Moskvaya qayıtdıqdan sonra M.Maqomayev Böyük Teatrın tərkibinə daxil olmaq barədə təklif alır. Solist qərarlı şəkildə bundan imtina edir, ya özünü teatr cədvəlinə bağlamamaq istəmədiyindən, ya da sadəcə prinsipiallığından bu addımı atır.

Bu məqamda bir məsələni də qeyd edək ki, SSRİ mədəniyyət naziri Yekaterina Furtseva onun sənətinin vurğunu idi. Müslümə xüsusi diqqəti ilə fərqlənirdi.

Müslüm Eldar Quliyevin filmlərinə musiqi yazır, rejissor Qleb Drozdovun sifarişlərini yerinə yetirirdi. "İqor polku haqqında dastan" əsərinin motivləri əsasında hazırlanmış "Yaroslavna" tamaşasına musiqi bəstələyib. Özü həmin tamaşada knyaz İqor, Tamara Sinyavskaya isə Yaroslavna rollarını ifa edib.

Onun yaradıcılığından heç vaxt Azərbaycan mövzusu əskik olmayıb. Ü.Hacıbəylinin "Sənsiz", "Sevgili canan", babası M.Maqomayevin "Şah İsmayıl" operasından Şah İsmayılın ariyası, özünün bəstələdiyi mahnıların sırasında "Ey əziz anam, Azərbaycan!" mahnılarını mütləq ya konserin əvvəlində, ya da sonunda bütün ruhu ilə ifa edərdi. SSRİ-nin mərkəzi televiziyası bir müddət öz verilişlərini Müslüm Maqomayevin melodiyası ilə tamamlayırdı. Dünyanın elə bir ölkəsi yox idi ki, Müslüm orada çıxış etməsin.

Məşhur şair Robert Rojdestvenski onun haqqında qeydlərində yazır: "Mən Müslüm Maqomayevin ifa etdiyi bir çox konsertlərdə iştirak etmişəm. Bu konsertlərdə heç vaxt aparıcı onun adını və soyadını tam elan etməyə imkan tapmayıb. Adətən, Müslüm adından sonra o qədər alqış səsləri ucalırdı ki, bütün texnikaya rəğmən aparıcının onun soyadını elan etməsi səs-küy içərisində eşidilməz olurdu. Buna öyrəşmişdik. Necə ki onun tək bir adının bizim incəsənətdə özünəməxsus yeri olduğuna öyrəşmişdik. Həm də ona alışmışıq ki, istənilən opera ariyası, istənilən mahnı onun ifasında həmişə gözlənilən möcüzə idi".

Ölümündən sonra Rusiyanın məşhur televiziyasında onun haqqında təşkil olunmuş xüsusi verilişdə çıxış edən İosif Kobzon sənət dostu haqqında deyib: "Müslümlə birlikdə qastrollarda çox olmuşam. Ondan sonra tamaşaçı qarşısına çıxmaq mümkün deyildi. Bilirdin ki, nə qədər gözəl ifa etsən də, tamaşaçıları razı sala bilməyəcəksən. Tamaşaçılar onu dinləmək istəyəcəklər. Müslüm əsl qafqazlı idi. Qastrollarda olanda bizi pul xərcləməyə qoymazdı. Bütün xərcləri özü çəkərdi".

Rejissor Tofiq İsmayılov 1971-ci ildə onun haqqında "Oxuyur Müslüm Maqomayev" adlı film-konsert çəkmişdir. İllərlə dinləyicilərin sevgisini qorumağı bacarmış Müslüm Maqomayev "Qırmızı Əmək Bayrağı" və "Xalqlar Dostluğu" ordenləri ilə təltif edilib. "İstiqlal" ordenini isə ona Ulu Öndər Heydər Əliyev şəxsən təqdim edib.

Rusiya dövləti hər il bir qayda olaraq dekabr ayında, ilin yekununda görkəmli elm, mədəniyyət xadimlərinə və hərbi qulluqçulara yüksək mükafatlar təqdim edir.

Rusiya Prezidenti Vladimir Putin 2002-ci il dekabrın 26-da Moskvada, Kremlin Yekaterina salonunda görkəmli həmvətənimiz, SSRİ və Azərbaycanın Xalq artisti, dünyaşöhrətli müğənni və bəstəkar Müslüm Maqomayevə Rusiya Federasiyasının yüksək mükafatını - "Şərəf" ordenini təntənəli şəkildə təqdim edərkən xalqımızın böyük oğlu belə dedi: "Mən ömrümün əksər hissəsini Rusiyada yaşasam da, özümü həmişə Azərbaycan vətəndaşı hesab etmişəm".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*